# “Haqdan yanan çıraq heç vaxt sönməz!"

*Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2025-ci ilin may ayının 10-da Ağdam rayonuna etdiyi növbəti səfəri tariximizdə xüsusi önəm kəsb edən hadisələrlə yadda qaldı. Bu səfər təkcə bölgənin yenidənqurma prosesində mühüm mərhələ olmaqla yanaşı, azad olunmuş torpaqlarda milli ruhun, vətəndaş birliyinin və dövlət rəhbərinin xalqa olan sarsılmaz bağlılığının bir daha təcəssümünə çevrildi.*



**Şahin SEYİDZADƏ,**
**Milli Məclisin deputatı.**

Prezident İlham Əliyevin səfəri tarixi və mənəvi baxımdan daha bir xüsusi məna daşıyırdı - səfər ümummilli lider Heydər Əliyevin doğum gününə, 10 may tarixinə təsadüf edirdi. Bu gün Azərbaycan xalqı üçün sadəcə bir təqvim günü deyil - xalqın xilaskarı və müasir müstəqil Azərbaycanın memarı olan dahi rəhbərin əziz xatirəsinin böyük ehtiramla yad edildiyi bir gündür. Ağdam torpağında gerçəkləşən bərpa və dirçəliş, məhz ulu öndərin ideyalarının və yolunun layiqli davamının Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilməsi bu tarixi daha da mənalı etdi.

Ağdamda yüksələn hər bir bina, yenidən canlanan hər bir küçə, muğam sədaları ilə dolan hər bir məkan bu torpaqlarda Heydər Əliyev siyasətinin davamlılığının, xalqın iradəsinin və dövlətin qətiyyətinin təcəssümüdür. Bu səfər həm də bir ehtiram səfəri idi - şəhidlərin ruhuna, xalqın iradəsinə və ulu öndərin müqəddəs xatirəsinə ehtiram.

Səfər çərçivəsində Prezident İlham Əliyev Ağdam Muğam Mərkəzinin təntənəli açılışında iştirak etdi. Bu mərkəzin açılışı mədəniyyətin dirçəlişi deməkdir. İşğal dövründə xarabalığa çevrilmiş bu qədim şəhərdə, bu gün müasir memarlıq üslubunda inşa edilən mədəniyyət ocağı milli musiqimizin dirçəlişini və xalqın mənəvi irsinə olan qayğını simvolizə edir. Açılış mərasimində Prezident İlham Əliyev böyük ehtiram və kövrəkliklə çıxış edərək vurğuladı: "Bu gün ulu öndər Heydər Əliyevin doğum günüdür. Mənim üçün, hər bir vətənpərvər insan üçün əziz bir gündə bu tədbiri keçirmək, əlbəttə ki, böyük məna daşıyır. Ulu öndərin bütün həyatı, bütün fəaliyyəti Azərbaycan xalqına, dövlətinə həsr edilmişdir və bugünkü Azərbaycan Onun əsəridir". Bu baxımdan Ağdam Muğam Mərkəzi yalnız muğamın deyil, xalqımızın milli ruhunun və zəfərini əks etdirir.

Tədbirin unudulmaz anlarından biri də Gülablı kənd Uşaq Musiqi Məktəbinin şagirdləri - Əhəd Ağayev, Türrə Hüseynova və Rüfət Axundovun ifasında səslənən "Qarabağ şikəstəsi" oldu. Bu üç gənc ifaçının səsi 30 illik işğalın silə bilmədiyi İlahi verginin, sirli bir musiqi irsinin yaşadığını sübut etdi. Onların ifası, sanki dağıntılar arasından boylanan bir millətin ruhunu, sonsuz davamlılığını və muğamın əbədiliyini səsləndirdi. Prezident İlham Əliyev onların çıxışını ayaq üstə alqışladı və kövrəkliklə bu gənc istedadların timsalında Qarabağın yenidən dirçələn ruhunu gördüyünü ifadə etdi.

Prezident İlham Əliyevin səfəri çərçivəsində baş tutan daha bir önəmli məqam, Kəngərli kəndində məskunlaşmış sakinlərlə görüşü oldu. Yenidən qurulmuş müasir kənddə ilk məskunlaşan ailələrlə səmimi söhbət edən dövlət başçısı, onlarla çiyin-çiyinə dayanaraq bu torpaqlara həyatın qayıdışını şəxsən izlədiyini göstərdi. Prezidentin kənd sakinləri ilə olan münasibəti, onların dərd-sərinə bələd olması, sadə və təvazökar davranışı dövlətin xalqla birliyini bir daha nümayiş etdirdi.

Qeyd olundu ki, bu kənd və digər yaşayış məntəqələri yalnız tikinti baxımından deyil, həm də sosial və mədəni baxımdan ən yüksək standartlara cavab verir. "Biz bu torpaqlara həyat, mədəniyyət, rifah qaytarırıq. Ağdam artıq yalnız bir şəhər deyil - bir rəmzə çevrilib", - deyə Prezident vurğuladı.

Kənd sakinləri çıxışında Prezidentə təşəkkür edərək vurğuladılar ki, bu torpaqlarda nəinki həyat, həm də ümid, inam və ruh yenidən doğulur. Kəngərli kənd sakini olan bir müəllimənin səsləndirdiyi sözlər isə yaddaşlarda dərin iz buraxdı: "Haqdan yanan çıraq heç vaxt sönməz!" Bu ifadə yalnız bir təşəkkür deyildi - o, xalqın dövlətə olan etimadının, ədalətin bərpasına olan inamın, vətənə sədaqətin simvoluna çevrildi.

Bundan başqa, Prezident İlham Əliyevin Ağdam səfərinin zirvə nöqtələrindən biri Bərdə-Ağdam dəmir yolunun ilk sərnişin qatarının yola salınması oldu. Yaxın keçmişdə düşmən işğalı nəticəsində fəaliyyəti dayandırılmış bu mühüm nəqliyyat xətti, bu gün yenidən Azərbaycan xalqına xidmət etməyə başlayır. Bərdə dəmiryolu stansiyasında keçirilən mərasimdə Prezident qatarı şəxsən yola saldı və bu hadisə Ağdamın iqtisadi-sosial həyatında yeni bir səhifənin açıldığını nümayiş etdirdi.

Yeni dəmir yolu təkcə sərnişin daşınmasını deyil, eyni zamanda bölgənin iqtisadi inkişafını da stimullaşdıracaq. Yol boyunca çəkilən yeni infrastruktur, stansiyalar və xidmət obyektləri regionun həyatına can verəcək, Böyük Qayıdış prosesini daha da sürətləndirəcək.

Prezident İlham Əliyevin bu səfəri bir daha sübut etdi ki, Qarabağda həyata keçirilən hər bir layihə planlı, dərin düşünülmüş və xalqın rifahına yönəlmiş addımdır. Ağdam artıq dağıntılarla deyil, dirçəlişlə anılır.

Azərbaycan xalqı bu günü illərlə gözlədi. Gözlənti ümidlərlə, qurbanlarla, səbirlə müşayiət olundu. Həmin səbrin bəhrəsi olan bir gerçək bu günün qalib və qurucu Azərbaycanın reallığıdır. Və bu reallığın baş memarı - xalqı ilə birgə irəliləyən Prezident İlham Əliyevdir.

Respublika .- 2025.- 15 may(№99).- S.5.